# Prezident strateji prioritetləri bəyan etdi

**"Siyasi arenada dövlətin və xalqın gələcəyi ilə bağlı məsuliyyəti öz üzərinə götürməyi, vaxtında və düzgün qərarlar qəbul edərək, onların icrasına dair qətiyyətli addımlar ataraq tarixi bir missiyanı yerinə yetirməyi bacaran şəxsiyyətlər xalqın əsl liderinə və siyasi fenomeninə çevrilirlər. 2003-cü ildən ölkədə keçirilmiş seçkilərdə Prezident seçilmiş İlham Əliyev Ümummilli Liderimizin siyasi kursunu davam etdirərək dövlətimizi strateji hədəflərə doğru uğurla aparır. Xalq onu qalib edən Prezidentini seçkidə qalib etməklə növbəti mərhələdə gözləntilərinin yenə də reallaşdırılacağına inanır".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat qeyd edib ki, prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirdi. Xalq görülən işlərə yüksək qiymət verərək gələcək inkişafımıza səs verdi. Seçkilər ədalətli və şəffaf şəkildə keçirildi. Beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, "exit-poll"lar MSK-nın rəsmi nəticələri ilə üst-üstə düşdü. Bu bir daha onu göstərdi ki, xalqımızın iradəsini ifadə edən prezident seçkiləri hər zaman olduğu kimi, bu dəfə də qanun çərçivəsində keçirilib.

Deputat bildirib ki, İlham Əliyevin əvvəlki mərhələdə müəyyənləşdirdiyi yol xəritəsi güclü iqtisadi potensialın formalaşdırılmasını, müasir cəmiyyət quruculuğunu, qarşıya qoyulmuş bütün vəzifələri yerinə yetirmək qüdrətində olan Silahlı Qüvvələrin daha da gücləndirilməsini, beynəlxalq aləmlə bərabərhüquqlu, qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan əlaqələrin inkişaf etdirilməsini və bütün bunların son hədəfi kimi Azərbaycanın müstəqil siyasətini, ərazi bütövlüyünün toxunulmazlığını nəzərdə tuturdu: "Ona görə də atılan bütün addımlar Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Daha sonra isə rəşadətli ordumuz tərəfindən Qarabağda keçirilən 24 saatlıq lokal antiterror tədbirləri nəticəsində ərazilərimiz qanunsuz erməni hərbi birləşmələrindən tamamilə təmizləndi, separatçı rejim özünü buraxdığını elan etdi. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Bu gün əminliklə demək olar ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan bundan sonra da böyük zəfərlərə və nailiyyətlərə imza atacaq!", - deyə müsahibimiz söyləyib.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin beynəlxalq nüfuzu da nailiyyətlərimizin qazanılmasında əsas amillərdəndir: "Dövlət başçısı beynəlxalq platformalarda çoxlu yeni təşəbbüslərin və çağırışların müəllifidir. Bu təşəbbüslər isə hər zaman dəstək qazanır və icrası da uğurla yerinə yetirilir. Dövlət başçısının 50-yə yaxın beynəlxalq mükafata layiq görülməsi də onun beynəlxalq nüfuzunun əyani sübutudur. Prezident İlham Əliyevin hakimiyyətdə olduğu son 20 ildə ölkənin sosial-iqtisadi sahədə nailiyyətləri beynəlxalq təşkilatlar tərəfindən də qeyd edilir. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı ortagəlirli ölkələr qrupuna daxil olub. Son 20 ildə ölkəmizdə dövlət büdcəsinin illik sosial müdafiə xərcləri 20 dəfədən çox artıb. Bu uğurların arxasında gərgin iş, xalqa və dövlətə xidmət dayanır".

Prezident İlham Əliyevin xalqa verdiyi bütün vədləri yerinə yetirdiyini deyən Kamran Bayramovun sözlərinə görə, 20 ildə ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, əhalinin sosial rifahı daha da yaxşılaşıb: "Ölkəmizin siyasi, iqtisadi imkanları genişləndirilib, beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Prezident ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər görüb, nəhəng infrastruktur layihələrinin həyata keçirilməsini təmin edib. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını genişləndirib. Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına, yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin zamanın tələblərinə uyğun qurulmasına mühüm töhfələr verib".

Kamran Bayramov bildirib ki, İlham Əliyevin inaqurasiya mərasimində nitqi ölkəmizin gələcəyinə konseptual baxış xarakteri daşıdı və strateji prioritetləri müəyyən etdi. Prezident İlham Əliyev qeyd etdi ki, yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Dövlətimizin başçısının dediyi kimi, bu dövrün böyük nailiyyətləri olacaq.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 16 fevral, № 35.- S.7.